AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# KOB klaster şirkətisiniz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

❖ KOB klaster şirkətləri KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən **7 il müddətinə əmlak vergisini** ödəməkdən və KOB klaster fəaliyyətində istifadə olunan torpaqlara görə **torpaq vergisini** ödəməkdən **azad edilirlər**.

# Kənd təsərrüfatı məhsullarının istehsalı ilə (o cümlədən sənaye üsulu ilə) məşğul olursunuz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

❖ kənd təsərrüfatı məhsullarının istehsalında (o cümlədən sənaye üsulu ilə) istifadə olunan obyektlərə görə **2024-cü ilin yanvar ayının 1-dək** əmlak vergisi **ödənilmir**.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

# Mikro sahibkarlıq subyektisiniz?

**O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...**

❖ Mikro sahibkarlıq subyekti olan hüquqi şəxslər əmlak vergisini ödəməkdən azaddırlar.

# İnvestisiya təşviqi sənədi almısınız?

**O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...**

❖ İnvestisiya təşviqi sənədi alındığı tarixdən müvafiq investisiya layihəsi çərçivəsində investisiya vəsaiti hesabına əldə edilmiş (alınmış, gətirilmiş, istehsal edilmiş, tikilmiş və ya quraşdırılmış) əmlaka görə 7 il müddətinə əmlak vergisi ödənilmir.

**Əlavə olaraq bilməlisiniz ki...**

❖ İnvestisiya təşviqi sənədi alınan tarixədək əldə edilmiş və hüquqi şəxs və ya fərdi sahibkar tərəfindən **sahibkarlıq fəaliyyətində istifadə edilmiş** əmlaklara görə əmlak vergisi **ödənilir**.

❖ İnvestisiya layihəsi çərçivəsində **sahibkarlıq fəaliyyətinə cəlb edilən** və əvvəllər vergi ödəyicisinin **sahibkarlıq fəaliyyətində istifadə edilməyən** binalara görə də **7 il müddətinə** əmlak vergisi **ödənilmir**.

! Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda, baş verə biləcək maliyyə itkiləriniz və vergi məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.